# Mənim adım Müslümdür

**Qərib Mehdi**



**(xatirə-hekayə)**

***Bir dəfə xalaoğlum Maarif Göytürk ehtiyac duyduğu bir məsələni diqqətimə çatdırdı. Əslində, bu, xatırlatma idi. Özü də qınaq dolu bir xatırlatma. Dərinə varanda, xalaoğlum haqlı idi. O, illərlə sinəsinə yığdığını, nəhayət, dilinə gətirdi:***

***– Xalaoğlu, sən bağlı olduğun adamlardan, həyatında rol oynayan ziyalılardan, bir qələm sahibi kimi ayaqda qalmağında zəhməti olanlardan çox yazmısan. Nədənsə, mənim atam, sənin həm bibin oğlu, həm də xalanın əri Müslüm kişi bu sırada yer almayıb. Məgər onun, sənin üzərində zəhməti olmayıb? Onun qayğı körpüsündən keçməyibsən? Onun sən tərəfdən xatırlanmağa haqqı çatmırmı? Məncə, bu günkü uğurlarının səbəbkarlarından, şəriklərindən biri də mənim atamdır. Səni ədalətli qələm sahibi kimi tanıdığım üçün bunları yadına saldım. Hərəkətimdə yanlışlıq varsa, bağışla.***



**Müslüm Cəlil oğlu Məmmədov**

Necə yəni, «bağışla?..» Düz sözə nə deyəsən? Xalaoğlum tam haqlı idi. Bəzən uzaq yaxından tez görünür. İkitərəfli qohumum olan Müslüm kişi çox yaxında idi. Ağrı-acılarıma sinə gərəni, sevinclərimə qanad olanı qələmin hədəfinə niyə belə gec gətirməliyəm? O, əvəz olaraq məndən heç vaxt heç nə ummayıb. Mənim tərəfimdən yol verilən arxayınçılıq isə Maarifin diqqətindən yayınmamışdı. Qəbahətimi anladığım üçün dərhal dilləndim:

– Bu «arxayın bəyi» qınaqla cəzalandırmaqda haqlısan. Tezliklə bu məsələni yoluna qoyaram.

Maarif cavabımdan razı qaldı. Beləliklə, üç qardaşdan ortancılı haqqında xatirə-hekayəmə başladım. Bir romanın mövzusu olacaq hadisələri fraqmentlər şəklində oxuculara təqdim etməyi daha münasib sandım.

## Ortancıl qardaş

Xatirə əfsanədən sıyrılıb çıxmış həqiqətdir. Ancaq onun quruluşunda, təqdimetmə tərzində sələfinin əlamətləri hiss olunur. Bu hal gerçəyin dəyərinə xələl gətirmir, əksinə, oxu şirinliyini, mütaliə həvəsini artırır.

İlk bölümün adı, göründüyü kimi, «Ortancıl qardaş»dır. Nağıllarda, əfsanələrdə üç qardaş qurumu tez-tez gözə dəyir: böyük qardaş, ortancıl qardaş və kiçik qardaş. Adətən, böyük qardaş dönük, ortancıl miyanə, kiçik qardaş isə çətinliklərə sinə gərən, sınaqlardan çıxan qalib kimi təqdim olunur. Həyat isə bu xəyali təsnifata öz gerçək düzəlişini verir. Qəhrəmanım Müslüm kişi üç qardaşın ortancılıdır. Özünün əzmi, mübarizələrdə dönməzliyi, xeyirxahlığı, ədalətin yanında yer almağı ilə birincidir. Çətin də olsa, o, ömrünün axırına kimi bu insani mövqeyini qoruyub saxlaya bildi.





**Xalaoğlular: (soldan) bu yazının sifarişçisi Maarif Göytürk Müslüm oğlu və bu yazını yazan Qərib Mehdi Qasım oğlu**

Əməyi sevən adam idi. Alman-rus müharibəsinin çətin günlərində bir müddət əkin-biçinlə məşğul oldu. Sonra peşə təhsili alıb sürücülük vəsiqəsi aldı. Uzun illər taksi parkında gah minik, gah da yük maşını sürdü. Bu diribaş adam ictimai vəzifəyə də sahibləndi. Küçə üçlüyünün sədri (domkom) olduğuna görə əli möhür də gördü. Həmkarları içində sözükeçərliyilə fərqlənirdi.

Bir əsr ömür sürdü. Heç kimin qarşısında əyilmədiyi üçün uzun yaşadı. 100 yaşadı, düz yaşadı. Başqaları yaltaqlığı şərf kimi boynuna doladığı halda, o heç o «şərfi» yan cibinə də qoymadı. Xasiyyətində bir kəskinlik vardı. Kükrəyəndə hamı qarşısından çəkilirdi. Zarafatla deyərdilər ki, qəzəbli olduğu üçün Əzrail ona yaxın düşə bilmir.

Xalam Sürəyya xanım – ömür-gün yoldaşını 10 uşaq sahibi eləmişdi. Sonbeşikləri milli ruhu ilə seçilən Maarif idi. Çoxuşaqlı olduğuna işarə ilə peşə dostları ona «sovxoz» (çoxuşaqlı mənasında) deyirdilər. Bu «sovxoz» yaxşı ata olduğunu sübut edərək üzvlərinin hamısına ali təhsil diplomu verdi. Üstəlik biz – anamla mən də onun himayəsindən bəhrələndik.

Mübahisəli meyarları aydınlaşdıran bir «qızıl orta» termini var. Bu, müqayisədə üstünlük mənasına gəlir. Üç qardaşın «qızıl orta» mükafatçısı şübhəsiz ki, ortancıl qardaş Müslüm kişidir. Ələmqulu da (böyük qardaş), Möhsün də (kiçik qardaş) müəyyən üstünlüklərə malik idilər. Ancaq ətrafa canıyanımlıqda, darda qalanın harayına yetməkdə heç biri Müslüm kişinin yerini verə bilmirdi.



**«Sovxoz»un – Müslüm kişinin böyük ailəsi. Ayaq üstə duranlar (soldan) 1-ci Müslüm Cəlil oğlu Məmmədov, 3-cü həyat yoldaşı Sürəyyə xanım. 1950-ci illər.**

## Qaçqınlıq

***Ermənilər rus imperiyasının siyasi səhnəsində maşa rolunda çıxış etməyi xoşlayır və türklərə qarşı öhdələrinə götürdükləri qanlı olaylar törətməyi yaxşı bacarırdılar. Təki onların xəyali – «dənizdən dənizə» torpaq arzuları gerçəkləşsin. Ruslar da həmişə onların bu xəstə xülyalarından ustalıqla istifadə etmişlər. Onların anti-insani siyasəti elə bu günlərin özündə də davam edir. Mahir dirijor olmasaydı, ermənilər Azərbaycanın halal torpağı olan Dağlıq Qarabağı 30 il müddətində işğal altında saxlaya bilməzdilər. Çox şükürlər ki, qüdrətli ordumuz nəhayət, bu işğala son qoydu.***

Ermənilər etnik çoxluqdan uzaq olan mono-millətçiliyə üstünlük verən yığma toplumdur. Ruslar və beynəlxalq güclər təxminən 150-200 il bundan öncə ermənilərə Qərbi Azərbaycan torpaqları hesabına vilayət statusu çərçivəsində yaşam hüququ verdilər. Zaman-zaman bu siyasi status böyüdü, onlar işğalçılıq, etnik təmizləmə yolu ilə öz ərazilərini genişləndirdilər. İlk növbədə, bu amansız rəftarın, qanlı olayların ünvanı yerli sakinlər olan türklərə qarşı tuşlandı. Sanki sakit gölə göydən bir meteor düşdü. Zərbəyə hazır olmayan uyğulu gölün ləpələri çaşqın halda müxtəlif istiqamətlərə sıçradı. Beləliklə, Qərbi Azərbaycanda yaşayan türklərin qadalı-qırğınlı deportasiya dalğası başladı. Həyasız qonaq ev sahibini evindən elədi. Ölümlə müşayiət olunan soyqırımdan can qurtarmaq üçün azərbaycanlı sakinlərin hərəsi bir səmtə üz tutdu. Əsas istiqamət Azərbaycana idi.

Qardaşlar pərən-pərən düşdü. Böyük qardaş Gəncədə bənd aldı. Kiçik qardaş da sonra həmin səmtə üz tutdu. Ortancıl qardaş isə Qəbələdə məskunlaşdı. Müslüm kişinin dayısı – mənim atam Qasım Mehdi oğlu isə anası Nərgizlə birlikdə Bərdənin Soğanverdilər kəndinə pənah apardı. Bu səpələnmə 1918-ci ildə baş verdi. Ana babam Şirməmməd kişi isə həyat yoldaşı və qızları: gələcək anam Dürsədəf və xalam Sürəyya ilə birlikdə Cənubi Azərbaycanın Əhər şəhərindən Soğanverdilər kəndinə atamgilin qonşuluğuna üz tutmuşdular.

Atam burada anamı görüb bəyənmiş və ailə qurmuşdular. Altı uşaqdan dördünü Bərdə torpağına pay vermişdilər. Beşinci qurban – qardaşım Əziz isə Gəncə torpağında uyumalı oldu. Sanki xəstəliklər də qaniçən ermənilərlə əməkdaşlıq edirdi. Qaldıq bir anag Çox irəli getdim. Bu barədə sonra.

Tanrı haraycılığı da ortancıl qardaşın taleyinə yazmışdı. Ara səngiyəndən sonra, 30-cü ilin əvvəllərində Müslüm kişi sağ ikən itkin düşənləri kəndbəkənd, şəhərbəşəhər arayıb-axtarmağa başladı. «Axtaran tapar» deyiblər. Ortancıl qardaş əvvəlcə o biri qardaşlarını tapdı, sonra dayısının – atam Qasım kişinin sorağına düşdü. Çətinliklə olsa da, bu axtarış da nəticə verdi. O, Soğanverdilərdə atamgili tapdı və bu tapıntının içində qızlar bulağından yenicə su içmiş xalam Sürəyyanı gördü, ona vuruldu. Bu məhəbbət sevdası parçalanmış ailənin bütövləşməsini sürətləndirdi. O, bizi öz yaşadığı məskənə – Qəbələyə köçürüb apardı. Sonra xalamla ailə qurub gələcəkdəki «sovxozun» – çoxuşaqlılığın əsasını qoydu. Bununla da, mənəvi cəhətdən yarası sağalmayan qaçqınlığa fiziki cəhətdən son verildi.

## Sıfırdan sonra gələr rəqəm - 1







**Hadisələrin cərəyan elədiyi Bərdə (yuxarıda soldan birinci), Qəbələ (yuxarıda soldan ikinci) və Gəncə (aşağıda) şəhərlərindən görüntülər**

6 övladın sayı 2-yə enmişdi: qardaşım Əziz və mən. Gözümüzdolusu sevinə bilmədik. Torpaq Əzizi də gözaltı eləmişdi. Tezliklə onu da öz «beşiyinə» aldı. Fələk çox gördüyü 2 sayını bir az da azaldıb sıfırdan sonra gələn rəqəmə – 1-ə çevirdi. İtki silsiləsinə dözməyən atam da getdi. Bir ailənin meydanı geniş, iştirakçısı az – anam və mən. Anam çox nikbin adamıydı. Bir təsəlliverici cümləni tez-tez təkrarlayırdı: «Allah da təkdirg».

Anam kolxozda işləyirdi. Dolanışıq sarıdan elə bir korluğumuz yox idi. Bununla beləg Baş papaqsız, ailə başçısız olmasın. Anam hələ cavan idi. Ona müxtəlif təmənnalı baxışların dikilməsi hiss olunurdu. Bunu duyan qeyrətli Müslüm kişi özünü rayona yetirdi. Əlaqədar təşkilatlarla danışıq aparıb bizim köçümüzü təşkil etdi. Düşəcəyimiz məkan da məlum idi – Gəncə. Öz evlərinə bitişik bir məhləni də bizim üçün almışdı. Cəmi bir otağımız vardı. Olsun. Təki, nəzarəti üstümüzdən əksilməsin. Mən ilk dəfə buradan çanta götürüb məktəbin birinci sinfinə yollandım.

Xalam və əri bizi darda qoymurdular. Mən orta məktəb şagirdiydim. Qazancım haradan ola bilərdi? Ümid anama qalırdı. Müslüm kişi şəhər həyatına uyuşmayan bir qadının işləməsinə razı olmadı. Yardım alırdıq. Bir də məhləmizi əkir, ağacları qoruyur, məhsullarını satırdıq. Mən ildənilə kitab-kitab böyüyür, bilik-bilik təkmilləşir, sinif-sinif adlayırdım. Yaxşı oxuyurdum. Yazılı və şifahi ədəbiyyatın vurğunu idim. Mütaliə etməkdən doymurdum. Sən demə, bununla öndə olan yazıçılığın əsasını qoyurdum. Ortancıl qardaş telimi sığallayıb deyirdi: «Oxu. Ay yetim, səndən bir şey çıxacaq». Bunu təsəlli üçün demirdi.

***Mənim haqqımda gəldiyi qənaətə inanırdı. Bir də ki, onda vəzifəli adamlara, onları ram etməyə böyük maraq vardı. Təhsilsizlik bu imkanı ona qismət eləməmişdi. Ümidini məktəbə ayaq döyən uşaqlarına, o cümlədən mənə də bağlamışdı.***

***Hamı ona «əmi» deyirdi. Hətta doğma uşaqları da. Bunun da başqa bir yozumu varmış. Doğmalarına ata olmaq, onların yükünü çəkmək böyüklükdür. Amma hamıya əmi olmaq daha böyük missiyadır. Müraciətdə seçilmədim. Mən də axına qoşulub ona «əmi» dedim.***

## Mənim adım Müslümdür

Yetimin taleyi həmişə «zəngin» olur. Sıra ilə üç orta məktəb dəyişdim. Axırıncı axşam məktəbi idi. Nəhayət, kamal attestası alıb indiki Gəncə Dövlət Universitetinə qəbul üçün sənədlərimi təhvil verdim. Ədəbiyyat müəllimi olmaq arzusundaydım. Arzum gözümdə qaldı. O vaxtlar ali məktəblərə test üsulu tətbiq etməmişdilər. Müəllimlər şıdırğı rüşvət eşalonuna qoşulmuşdular. Başına, yəni biliyinə ümid bəsləyən abituriyent bəxtindən küsməliydi. Mənim isə nə pulum, nə də vəzifəli tapşıranım vardı. Bununla belə, öz gücümə üç imtahanı uğurla verdim. Dördüncü imtahandan – rus dili fənnindən kəsildim.

Əsgəri xidmət yaşına çatmışdım. Qanuni olsa da, olmasa da hərbi xidmətə aparacaqdılar. Tək qalan anam əlacsızlıqdan göz yaşları ilə yanağını suvaracaqdı. Rus dilindən kəsildin, indi gəl rusun bayrağını uca tut. İndi gəl canının bahasına dünyanın yarısını pəncəsi altında əzən rus ayısını qoru.

Hər dəfə hərbi xidmətə çağırış vərəqi gələndə anamın ürəyi sıxılırdı. Eşitmişdi ki, tək övlad olanı əsgər aparmırlar. Qanuna baxan vardımı? Bunu necə sübut eləməli? Təsəllim məni təslimçilikdən uzaqlaşdırdı. Çaylar bütün sularından, ağaclar bütün yarpaqlarından olmayıb. Sən niyə bu qədər qəm çəkir, təlaş keçirirsən, ana? Bu dünyada haqsızlığa sinə gərən Müslüm əmi var...

***Müslüm əmi yük daşıyan maşının – «QAZ-51»in sürücüsü idi. O, maşınına rayonlardan alma, heyva yükləyib paytaxtın bazarlarına daşıyırdı. Hərdən də maşınla Rusiyaya səfər edirdi. Məhsulu bir vaxtlar yaşadığı, ona doğma olan Qəbələdən tədarük edirdi. Rayonda dostları, tanışları çox idi. Ona qədərincə hörmət göstərirdilər. Oranın camaatı ilə lap bir ailə kimiydi.***

***Müslüm əmi həmişə axtarışda olan adam idi. Xüsusilə, çörəyini yediyi, suyunu içdiyi, havasını udduğu yurdun yetişdirdiyi görkəmli adamlarını tanımağa, yaşayanlarla əlaqə yaratmağa can atardı.***

***Camaat çar dövründə parlamış İsmayıl bəy Qutqaşınlı kimi yazıçı və dövlət adamı ilə öyünürdü. Bu fəxrə, öyünməyə qəbələlilər kimi Müslüm əmi də şərik olurdu.***

(ardı gələn sayımızda)